

Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

# Rusiya və Macarıstanın qurucusu olan Xəzər dövləti

## Rusiya

*Xəzər türkləri Xəzər dənizinin şimal-qərb sahillərində yaşayıb,VII-X əsrlərdə böyük xaqanlıq qurub,Şərqi Avropa tarixində mühüm rol oynamışdılar.Bu xaqanlıq Qafqaz,Qara dənizin şimalında,Volqa çayından Dnepr çayına qədər və quzeydə Kiyev şəhərinə qədər yerləri tutmuşdu.Xəzər dövlətinin qüvvətli təşkilatı və geniş ticarət fəaliyyəti vardı.Xalq rifah içində yaşayıb, məzhəb və din də azad idi.*

*Xəzər xalqının əsasını sabarlar təşkil edirdi,onlardan başqa hunlar,göytürklər,oğuzlar,bulğarlar və macarlar da oraya daxil idilər.*

*Ruriqdən sonra knyaz olan oğlu Oleq türklər tərəfindən qurulmuş olan,amma slavyan qəbilələri ilə dolmuş Kiyev şəhərini 882-ci ildə ələ keçirdi və buranı knyazlıq,yəni bəylik mərkəzi etdi.Xəzər dövlətinin süqutu dövründə və onların izni ilə qurulan bu bəylik,rus dövlətinin təməli olmuşdur.Oleq qurduğu dövlət təşkilatında xəzərləri özlərinə nümunə kimi götürmüşdü.988-ci ildə pravoslav-xristianlığı qəbul edən knyaz Vladimir və sonra knyaz Yaroslav (1036-1050) hələ də özlərini xaqan adlandırırdılar...*







576-cı ildə xəzərlər Göytürk dövlətinə tabe oldular.630-dan sonra istiqlallarını elan etdilər.Düşmənləri qarşısında dayana bilmək üçün də bizanslılarla dostluq və ittifaq qurdular.665-ci ildə Böyük Bulğar dövlətinin süqutundan sonra,Xəzər dövlətinin hüdudu Dneprə qədər genişləndi.Güney tərəfdən də islam orduları ilə qonşu olub,arasıra onlarla savaşırdılar.

Xəzər xaqanlığı göytürklərin təşkilat formasını eynən davam etdirirdi.Din və ticarət sərbəstliyi zaman keçdikcə sosial durumu dəyişəcəkdi.VII və XI əsrlər boyunca Şərqi Avropada xəzərlər tərəfindən "Xəzər" barışığı bağlandı.Bu barışığın gücünə,şərtlərinə görə Slavyan-Fin qarışıq qəbilələri öz aralarında dinc həyat şəraiti yarada bildilər.Skandinavya bölgəsindən gələn və dənizçi bir qəbilə olan varyaqlar arasında rus deyə adlandırılan bir qrup vardı.Bu qrup ticarət üçün gələn digər skandinaviyalıları idarəsi altında topladı(rus, isveç köklü bir sözdü,ros şəklində söylənir və gəmiçi mənasındadır).

Bu Varyaq-ruslardan Ruriq adlı bir knyaz Ladoqo gölü kənarında xəzərlərə tabe olan bir bəylik qurmuşdu.839-cu ildə ilk dəfə rurulan rus birliyində baş vəzirin adı xaqan idi.Ruriq 862-ci ildə Xəzər qalası Sambataya gəldi və burada sərbəst ticarət izni aldı.Onlar tabe kölə bir toplum idilər və ticarət edib vergi verirdilər.Rurik xəzərlərə tabe idi.

*Ruriqdən sonra knyaz olan oğlu Oleq türklər tərəfindən qurulmuş olan,amma slavyan qəbilələri ilə dolmuş Kiyev şəhərini 882-ci ildə ələ keçirdi və buranı knyazlıq,yəni bəylik mərkəzi etdi.Xəzər dövlətinin süqutu dövründə və onların izni ilə qurulan bu bəylik,rus dövlətinin təməli olmuşdur.Oleq qurduğu dövlət təşkilatında xəzərləri özlərinə nümunə kimi götürmüşdü.988-ci ildə pravoslav-xristianlığı qəbul edən knyaz Vladimir və sonra knyaz Yaroslav (1036-1050) hələ də özlərini xaqan adlandırırdılar.*

Rus (Ukrayna) knyazları təşkil və idarə baxımından türkləri örnək götürmüşdülər.Hətta ilk rus (Ukrayna) dövlət başçıları "Xaqan" adını daşımışdılar.Rus xaqanları X və XI əsrlərdə xristianlığı rəsmən qəbul etdikdən bir müddət sonra türkcə olan bu adı buraxdılar.

Xəzər dövləti X əsrin ortalarından zəifləməyə başladı.Çünki ticarət fəaliyyəti və ordu üçün alınan muzdlu yad əsgərlərin sayı artdı və ordu milli olmaqdan çıxdı.Dil və din birliyi olmaması da dağılmaq üçün zəmin hazırladı.Ordunun zəifliyi əmniyyət və ticarət işlərini pozdu.Get-gedə tabelikdə olan ellər də ayrıldılar. Nəhayət, Kiyev knyazı dənizdən və qurudan xəzərlərə hücum edib,paytaxtlarını aldı.Xəzərlər dağılıb,bir qismi Krıma və Şərqi Avropaya çəkildi, bir qismi də Azərbaycana gəldi və yerli xalqa qarışdı.

## Macarıstan

Macarıstanın adı olan "Hungary" sözü türkcə On-Oğurdan gəlir.Macarıstan dövlətinin qurulmasında da Xəzər xaqanlığı səbəb olmuş,hətta Almış oğlu Arpada başçılıq rütbəsi verərək quruluşu xeyli möhkəmləndirmişdilər.

Macarlar əslən türk kökündəndilər.Ural dağlarının yamaclarından çöllərə enərək burada Oğuz türkləri ilə uzun müddət bərabər yaşamışdılar. Bu bərabərlik 400 ilə qədər sürmüş və macar türk mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdı.

IX əsrin sonlarında doğru şərqdən gələn peçeneqlərin təzyiqi ilə qərbə çəkilmək məcburiyyətində qaldılar.Bu ərəfədə Xəzər xaqanı artıq gücünü itirmişdi.Qərbə yayılmaq istəyən peçeneqlərə öz ölkəsindən yol verdi.Amma macarlar öz tayfa birliklərini də qorumaq,saxlamaq istəyirdi.Xəzər xaqanı türk üçə soyundan Almış oğlu Arpadı tam ixtiyarlı macar başçısı təyin etdi və bu başçılıq türk adətlərinə uyğun bir qaydada elan edildi.Xəzər toplumundan ayrılan və üç qəbilədən yaranan türk-kabarlar da macar qəbilələrinə qatıldı və macarlar arasında türklər çoxluq oldular.

*Almış oğlu Arpadın idarəsində Dunay-Tizsa bölgəsinə gələn macarlar burada 896-cı ildə bu gün varlığını yaşadan Macarıstan dövlətini qurmuş oldular.Türk soyundan gələn Arpad xanədanı 1000 illik tarixi olan xristianlığı qəbul etmiş və 1301-ci ilə qədər hakimiyyəti əllərində saxlamışdılar.Macarlar indi də türkcə adlar daşımaqda davam edirlər.1220-ci ildən sonra monqol işğalı ilə əlaqədar qıpçaqların bir qismi Macarıstana köçüb, orada yerləşdi və bu hadisədən sonra bir çox qıpçaq sözləri macar dilinə keçdi.*

*Bizans tarixində macarlara türk deyilirdi.Macarıtanın Transilvaniya bölgəsində oturan türk əsilli Sekel qəbiləsi XVI əsrin ortalarına qədər qədim Orxon əlifbasını və oyma yazısını davam etdirmişdir.*

*Macar dilində bu gün belə çoxlu türkcə sözlər vardır: Tinodana,Tyuq-toyuq,keçkə-keçi,tarlo-tarla,tekno-təknə,arpa-arpa,aroq-arıq,alma-alma,taputanıq,bəlyəq-bəlgə,ərdəm-ərdəm,kek-göy,sarqa-sarı və b.*

*Xəzər xaqanlığı göytürklərin təşkilat formasını eynən davam etdirirdi.Din və ticarət sərbəstliyi zaman keçdikcə sosial durumu dəyişəcəkdi.VII və XI əsrlər boyunca Şərqi Avropada xəzərlər tərəfindən "Xəzər" barışığı bağlandı.Bu barışığın gücünə,şərtlərinə görə Slavyan-Fin qarışıq qəbilələri öz aralarında dinc həyat şəraiti yarada bildilər.Skandinavya bölgəsindən gələn və dənizçi bir qəbilə olan varyaqlar arasında rus deyə adlandırılan bir qrup vardı.Bu qrup ticarət üçün gələn digər skandinaviyalıları idarəsi altında topladı(-rus, isveç köklü bir sözdü,ros şəklində söylənir və gəmiçi mənasındadır)*